**İbrahim Yusifoğlu**

# O, GÜNƏŞ ÖMRÜDÜ, SÖNMƏYƏCƏKDİR

**Poema**

**Bakı – Şirvannəşr – 2023**

**Ön sözün müəllifiləri:**
**Adil Əliyev,**
***Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini***

**Salidə Şərifova,**
***Filologiya elmləri doktoru,***
***AMEA-nın professoru,***
***Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü***

**Redaktor:**
**Aygün Bağırlı**
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

**Rəyçi:**
**Vüqar Əhməd**
***Filologiya elmləri doktoru, professor***

**İbrahim Yusifoğlu**
**"O, Günəş ömrüdü, sönməyəcəkdir"**
**Bakı, "Şirvannəşr", 2023, 68 s.**

Şair-publisist İbrahim Yusifoğlunun yeni kitabı Azərbaycan xalqının mənəvi xilaskarı, xalqın əmin-amanlığı uğrunda ömrünü şam kimi əridən, Azərbaycan Dövlətinin banisi və qurucusu, qeyri-adi zəka sahibi və təşkilatçılıq bacarığına malik şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuşdur.

Poemada Ulu Öndərin hələ sovet illərində Azərbaycanı geridə qalmış respublikadan qabaqcıllar sırasına çıxarması, onun keçmiş SSRİ-nin ali rəhbərliyində ən çətin və məsuliyətli sahələrə məharətlə, yüksək peşəkarlıqla rəhbərlik etməsi, ideoloji işin ustası, mahir bilicisi kimi ürəkdən gələn poetik misralarla məhəbbətlə tərənnüm olunmuşdur.

İnanırıq ki, ümummilli liderin 100 illik yubileyində İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" kitabı sevimli oxucularına gözəl hədiyyəsi olacaqdır.

ISBN:

© İbrahim Yusifoğlu

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

29 sentyabr 2022, 11:30

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata

keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə

çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 sentyabr 2022-ci il***

*Adil Əliyev*
*Azərbaycan Respublikası Milli Məclis Sədrinin müavini*

# HEYDƏR ƏLİYEV – BÖYÜK MİLLƏT VƏ DÖVLƏT XADİMİ

## Millət xadimi və millət quruculuğu

Ulu öndər, ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin özündən sonra qoyub getdiyi irsinə bir daha nəzər salırıq. Əlbəttə ki, Azərbaycan hüdudları daxilində və xaricdə Heydər Əliyev ilk növbədə haqlı olaraq Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi şöhrət tapmışdır. Bu böyük insanın şəxsiyyətinin miqyası dövlət quruculuğundan və dövlət xadimi olmaqdan savayı, millət quruculuğunu və millət qurucusu, millət xadimi olmağı da özündə ehtiva edir. Məhz buna görə də ulu öndər Heydər Əliyevi böyük dövlət və millət xadimi kimi anırıq.

Sadə və qısa şəkildə ifadə etsək, dövlət xadimi dövlət quruculuğu və idarəçiliyində əhəmiyyətli surətdə iştirak edən şəxsiyyəti nəzərdə tutursa, millət xadimi millətin formalaşmasına, millət quruculuğuna töhfə verən, millətin vahid bir tam halına gəlməsi prosesində öncüllük edən şəxsiyyət deməkdir. Xalqların, o cümlədən Azərbaycan xalqının tarixində və həyatında həm millət, həm də dövlət xadimləri olmuşdur. Amma çox nadir hallarda olur ki, dövlət və millət xadimliyi olmaq şərəfi eyni bir insanın taleyinə yazılsın. Tariximizə Heydər Əliyev Azərbaycan xalqının böyük dövlət və milləti xadimliyi nəsib olmuş unikal bir fenomen kimi düşmüşdür.

Türkiyədə mühacir həyatı yaşamaq məcburiyyətində qalmış həmvətənimiz Əhməd Cəfəroğlu 1940-cı ildə yazırdı ki, həmin dövrə qədər Azərbaycanda millət xadimi adına layiq üç mütəfəkkir - Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi və Əhməd bəy Ağaoğlu olmuşdur. Onlar müvafiq olaraq latın

əlifbasına keçid, milli mətbuatın yaranması və inkişafı, Azərbaycan xalqının türk dünyasının tərkib hissəsi olması ideyalarının yayılmasında müstəsna rol oynayıblar. Həmin mütəfəkkirlərin qeyd edilən ideyaları və fəaliyyətləri Azərbaycan millətinin təşəkkülünə mühüm töhfələr veriblər. Millət xadimi olaraq Heydər Əliyevin unikallığı ondadır ki, onun fəaliyyəti qeyd olunan üç mütəfəkkirin ayrı-ayrılıqda çalışdıqları fəaliyyət istiqamətlərinin hər birini əhatə edib və siyasi müstəvidə baş verib. Qısaca olaraq bir neçə misal gətirək.

Mirzə Fətəli Axundovun ideyası olan latın əlifbasına tam keçidə müstəqil Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə nail olunub. Onun 18 iyun 2001- ci il tarixli fərmanına əsasən 2001-ci il avqustun 1-də Azərbaycan ərazisində bütün idarə-müəssisələr, təşkilatlar, Azərbaycan dilində bütün nəşrlər latın qrafikalı əlifbaya keçiblər. Ulu öndərin 2001-ci il 9 avqust tarixli fərmanı ilə 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan edilib. Həsən bəy Zərdabinin əsasını qoyduğu Azərbaycan milli mətbuatı Heydər Əliyevin dövründə böyük inkişaf yolu keçib. 1998-ci il avqust ayının 6-da ümummilli lider Heydər Əliyevin mətbuatda senzuranı ləğv etməsi milli mətbuatın inkişafına önəmli töhfə oldu. Ulu öndər həmişə jurnalistlərlə səmimi münasibətlər qurub, mətbuata daim açıq olub, ən gərgin dövrlərdə ən çətin məsələlər haqqında jurnalistlərlə söhbət edib. Hətta bəzən jurnalistlərlə zarafat edirdi. Əhməd bəy Ağaoğlu Azərbaycanı türk dünyasının tərkib hissəsi kimi görürdü. O, Azərbaycan milli mətbuatının inkişafına və milli oyanışa verdiyi ciddi töhfələrlə yanaşı, Türkiyə və Azərbaycan arasında mənəvi, intellektual və digər bağların qurulmasında mühüm fəal iştirak etmiş, Türkiyə və Azərbaycan arasında müəyyən mənada bir körpü olmuşdur. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1992-ci ildə Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində inşa edilmiş Ümid körpüsü həm də rəmzi məna daşıyır. Heydər Əliyev Ümid körpüsünü həsrət körpüsü kimi xarakterizə edirdi. Çünki bu körpü iki

qardaş xalqı bir- birinə qovuşdurdu, onlar arasındakı həsrətə son qoydu. Onun “Bir millət, iki dövlət" ifadəsi Türkiyə və Azərbaycan münasibətlərində rəhbər tutulan əsas prinsipə çevrilib, dünyada iki ölkə arasındakı münasibətlərin xarakterini lakonik surətdə və müdrikliklə ifadə edən baxış kimi qəbul edilir. Yuxarıda qeyd edilənlər Azərbaycanda millət quruculuğunda və millətin inkişafında mühüm amillər kimi çıxış ediblər. Amma Heydər Əliyevin sovet və müstəqillik illərində bu sahədə fəaliyyəti çoxşaxəli və dərindir, eləcə də onun millət quruculuğu işləri təkcə ictimai və intellektual sahələrlə məhdudlaşmamışdır. Ən önəmlisi isə o, millət quruculuğu sahəsində fəaliyyəti siyasi müstəviyə yüksəlmişdir. Yuxarıda adı çəkilən xadimlərimiz ictimai, mənəvi və intellektual sahədə, Heydər Əliyev isə daha çox siyasi millət quruculuğu ilə məşğul olmuşdur. Heydər Əliyevi unikal edən və digər millət xadimlərindən fərqləndirən əsas amillərdən biri məhz millət quruculuğunu siyasi müstəvidə həyata keçirməsidir. Çünki millət siyasi xarakter daşıyır, ictimai və ya etnikdən daha çox siyasi birlikdir, effektli millət quruculuğu üçün siyasi komponent zəruridir.

## Sovet dövründə Heydər Əliyevin millət quruculuğu fəaliyyəti

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, bolşevik hakimiyyətinin bərqərar olması və az sonra Azərbaycanın SSRl-nin tərkibinə qatılması millət quruculuğu prosesinə böyük zərbə oldu. Başlıca səbəb o idi ki, SSRl-də rəsmi ideologiya vahid sovet millətinin və sovet vətəndaşının formalaşdırılmasını tələb edirdi və bu əsas hədəflərdən idi. Bu fonda Azərbaycanda millət quruculuğu nəinki arxa plana keçmişdi, ümumiyyətlə bu məsələ heç mövzu deyildi. Mikayıl Müşfiq kimi ədiblərin və ziyalıların 1937-ci il repressiyalarının qurbanına çevrilməsi isə demək olar ki, bu sahədə ədəbiyyatın imkanlarını da minimallaşdırmışdı. Milli ruh, milli hiss

müəyyən mənada Səməd Vurğun kimi şair və ədiblərin Azərbaycan təbiətini vəsf edən şerlərində, onların yazıb yaratdığı Azərbaycan dilinin varlığında yaşadılırdı. Yəni Azərbaycan dili əsas milli birləşdirici amil kimi çıxış edirdi. 1940-cı ildə Azərbaycanda latın əlifbasının ləğv olunması isə millət quruculuğu prosesinə daha bir zərbə olmuşdu.

Millətimizin və milli kimliyimizin üzərini qara buludlar aldığı belə bir çətin dövrdən sonra Azərbaycanda millət quruculuğuna və milli varliğımızın qorunub saxlanmasına yeni nəfəs gətirən böyük şəxsiyyət Heydər Əliyev ümid işığı kimi parlamağa başladı. Ulu öndər hələ SSRl-nin güclü olduğu zaman həmin dövrün şərtləri daxilində millət quruculuğu sahəsində mümkün olan zəruri addımları atdı. 1967-69-cu illərdə Azərbaycanda Dövlət Təhlükəsizlik Komitəsinin sədri kimi Azərbaycanlı kadrların təhlükəsizlik orqanlarında irəli çəkilməsinə, yüksək vəzifələrə təyin olunmasına xüsusi önəm vermiş, yerli təhlükəsizlik orqanlarının kadr heyətinin xeyli dərəcədə milliləşdirilməsinə əhəmiyyətli surətdə nail olmuşdu. 1969-cu ildə Azərbaycan SSR-in rəhbəri seçildikdən sonra isə onun millət quruculuğuna töhfə verən işləri geniş miqyasda və çoxşaxəli olmuşdur. Cəmşid Naxçıvanski adına hərbi məktəbin Azərbaycanda yaradılması, Bakı şəhərində demoqrafik vəziyyətin süni şəkildə dəyişdirilməsinin qarşısının alınması və azərbaycanlı əhalinin sayının bərpa edilməsi, Şuşada Qarabağ xanının vəziri və şair Molla Pənah Vaqifin məqbərəsinin açılışı, Vaqif poeziya günlərinin keçirilməsi və digər addımlar ulu öndərin sovet dövründə millət quruculuğuna yönəlmiş silsilə işlərindəndir. Ulu Öndər Heydər Əliyevin tarixi təşəbbüsü ilə 1978-ci ildə 21 apreldə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinə dövlət dili statusu verilmişdir. Bu status Konstitusiyanın 73-cü maddəsində aşağıdakı kimi təsbit edilmişdi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir." Azərbaycan dilinə belə bir yüksək status verilməsinə nail olmaqla Heydər

Əliyev əsas milli birləşdirici amil və gələcək müstəqil dövlətçiliyimizin önəmli rəmzlərdən bir olaraq dilimizin mövqeyini Konstitusiya səviyyəsində möhkəmləndirdi.

**Müstəqil Azərbaycanda Heydər Əliyevin millət quruculuğunun ideoloji əsasları və praktik xüsusiyyətləri**

Dövlət və millət quruculuğu Heydər Əliyevin həm Sovet Azərbaycanına, həm də müstəqil Azərbaycan respublikasına rəhbərlik etdiyi dönəmlərdə həyata keçirilib. SSRİ kimi nəhəng ölkənin böyük dövlət xadimi olaraq Heydər Əliyev millət quruculuğunun vacibliyini gözəl bilirdi. Ən azı ona görə ki, SSRİ-nin dağılmasında əsas amillərdən biri onun mövcud olduğu 70 il ərzində millət quruculuğu işinin uğursuz olması idi.

Ulu öndər, ümummilli lider Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsis edilməsi onun Azərbaycanda millət quruculuğuna daha bir töhfəsi idi. Bu əlamətdar hadisənin SSRİ-nin varlığına 1991-ci il 8 dekabrda rəsmi surətdə son qoymuş Belaveja sazişinin imzalanmasından cəmi bir həftə sonra baş verməsi məntiqlidir. SSRİ-nin süqutu ilə digər sovet respublikaları kimi Azərbaycan da müstəqillik əldə etdi. Yenicə müstəqillik qazanmış ölkələrə xas xüsusiyyətlərdən biri millət quruculuğu prosesinin həyata keçirilməsidir. Yunan əsilli Amerika alimi Harris Milonas qeyd edirdi: "Müasir milli dövlətlərdə hakimiyyətin legitimliyi xalqa, əksəriyyətə bağlıdır. Belə əksəriyyət isə millət quruculuğu vasitəsilə əmələ gətirilir". Əks halda isə xalq və ya ölkə əhalisi özünü azlıq hiss edən müxtəlif qruplara bölünür və millət kimi formalaşa bilmir. Millət kimi formalaşa bilməmək və onun acı nəticəsi olaraq xalqın pərakəndəliyi milli birliyə və dövlətçiliyə böyük təhdiddir. Həm də millət quruculuğu olmadan təkcə dövlət quruculuğu ölkənin həqiqi müstəqilliyi üçün yetərli deyil.

Millət quruculuğu bir qayda olaraq dövlətin sərhədləri daxilində baş verir. Amma dünya təcrübəsi göstərir ki, bir sıra

dövlətlərdə millət quruculuğunun xarici ölçüsünün və ya beynəlxalq uzantısının olması bu prosesi daha təsirli edir. Bu zaman diaspora icmaları və lobbi qrupları xüsusi önəm daşıyır. Yəhudi, yunan və erməni diasporu kimi güclü diasporların fəaliyyətinə nəzər salsaq görərik ki, onların tarixi vətənlərində Ermənistan və digər xarici qüvvələr Azərbaycanın etnik və dini mənsubiyyət baxımından zəngin bir ölkə olmasından istifadə edərək müharibənin gedişində kimlik zəminində nifaq və təfriqə salmağa cəhdlər etdilər. Elə cəhdlərə ən yaxşı cavab Azərbaycandakı bütün xalqların nümayəndələrinin din və etnik mənsubiyyətindən asılı olmayaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir Yumruğu" ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirərək düşmənə çökdürücü zərbə vurmaları oldu. Dünya Azərbaycanlıları isə müharibənin gedişində öz mənəvi dəstəklərini və doğma vətənlə həmrəyliklərini əsirgəmədilər. Dünya Azərbaycanlılarının 5-ci Qurultayının 22 apreldə Şuşa şəhərində keçirilməsi Şuşanın ölkəmizdə və dünyada bütün azərbaycanlıların mənəvi paytaxtı olaraq ümummilli birlik rəmzinə çevrilməsini göstərir. Şuşaya və işğaldan azad edilmiş digər ərazilərimizə diasporda olan həmvətənlərimizin səfərlərinin təşkil edilməsi isə həmrəyliyimizi daha möhkəm, mənəvi tellərlə bağlayır və millət quruculuğumuzun beynəlxalq uzantısını gücləndirir. Bu isə təbii ki, millət quruculuğu istiqamətində görülmüş işlərin və yürüdülmüş siyasətin bəhrəsidir.

## Heydər Əliyevin millət quruculuğu müstəqil dövlətçilik kontekstində

Bəzən millət quruculuğu dövlət quruculuğuna nisbətdə arxa planda qalır. Halbuki millət quruculuğu dövlətçilik və dövlət quruculuğu ilə sıx bağlıdır. Məhz ona görə də beynəlxalq münasibətlər sistemində və siyasi diskursda "milli dövlət" və ya "millət- dövlət" məfhumları meydana çıxmışdır. Fransa, Almaniya, Türkiyə, Yaponiya millət- dövlət kimi səciyyələnən

ölkələrə aiddirlər. Həmin dövlətlərin nümunəsindən də göründüyü kimi millət quruculuğu nə qədər uğurlu və etibarlı olarsa, dövlət quruculuğu və dövlətçilik də bir o qədər uğurlu və möhkəm olar. Bu baxımdan ulu öndərin uğurunu şərtləndirən əsas amillərdən biri onu millət quruculuğu və dövlət quruculuğu mövzularına tam bir vəhdət halında baxması ıdı. Buna görə də Heydər Əliyevin millət quruculuğu fəaliyyətinin önəmini düzgün, dərindən və hərtərəfli surətdə anlamaq üçün mövzu müstəqil dövlətçilik kontekstində nəzərdən keçirilməlidir. Böyük qazax yazıçısı Oljas Süleymanovun fikrincə: “Çox zaman müstəqillik mövcud problemləri həll etmir, əksinə yeni problemlər gətirir". Təəssüf ki, bu sözlərin doğru olduğunu müstəqilliyimizin elə ilk ilində gördük. Amma qüdrətli, müdrik liderlər bu ssenarini dəyişib müstəqilliyi ölkənin rifahı və inkişafına xidmət istiqamətinə yönəldə bilərlər. Müstəqilliyimizin ilk illərində Azərbaycanın rəhbərliyində belə lider olmadı. Nəticədə torpaqlarımızn işğalı, siyasi xaos və hərc-mərclik, iqtisadi tənəzzül, xarici siyasətdəki ciddi problemlər ölkəni uçuruma sürükləyirdi. Amma Azərbaycan ziyanın yarısından qayıtmağı bacardı. 1993-cü ildə xalqın təkidli tələbi və o zamankı ölkə rəhbəliyinin xahişi ilə ulu öndər, ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. “Müstəqillik yolu qədər çətin yol yoxdur" deyən Heydər Əliyev bütün çətinliklərə sinə gərərək qayıdışı ilə müstəqilliyin problemlər gətirdiyi deyil, yeni imkanlar və inkişaf gətirdiyi Azərbaycan dövlətini qurdu. Heydər Əliyevin Azərbaycan üçün nəinki mümkün olan, hətta qeyri-mümkün hesab olunanları etdiyi dünya liderləri və beynəlxalq ictimaiyyət tərəfindən də etiraf olunur. Məsələn, Rusiya prezidenti Vladimir Putin Heydər Əliyevin dəfnində iştirak etmək üçün Azərbaycana gələrkən belə bir ifadə işlətdi: “Heydər Əliyev Azərbaycan xalqı üçün mümkünsüz işlər görmüşdür. Onu heç vaxt unutmaq olmaz. Qoy Azərbaycanlılar məndən inciməsinlər, Heydər Əliyev Azərbaycan çərçivəsinə sığan siyasətçi deyildi. O ümumbəşəri

bir siyasətçi idi".

Heydər Əliyev siyasətinin mahiyyəti Azərbaycan hüdudlarını aşırdı, o. dünyada mövcud olan beynəlxalq ziddiyyətlərin Azərbaycan üçün problem mənbəyinə çevrilməsinin qarşısını alaraq, əksinə, məharətlə həmin ziddiyyətləri milli maraqlarımız naminə istifadə etdi. Buna ən bariz misal Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsi və Əsrin Müqaviləsi kimi transmilli və trans-regional layihələrin həyata keçirilməsidir. Həmin fəaliyyətin bəhrələri 2020-ci il Zəfərimizin təməlində dayanır. O qəbildən olan beynəlxalq layihələr Azərbaycanın müstəqil dövlət olaraq dünyaya səmərəli inteqrasiyasını möhkəmləndirir, onu dünyanın hörmət və etibar edilən dövlətlərindən birinə çevirir, müstəqil dövlətçiliyini dayanıqlılığına xidmət edirdi və hazırda da etməkdədir. Eyni zamanda, bu layihələr millətimizin, vətəndaşlarımızın ümumi qürur mənbəyinə çevrilir, beləliklə bu qürur mənbəyi millətimiz üçün daha bir birləşdirici amil kimi çıxış edir. Bu kontekstdən yanaşdıqda ulu öndərin dillərdə əzbər olan “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" ifadəsindəki "Azərbaycanlı” məfhumu həm müstəqil Azərbaycan dövlətinin vətəndaşını, həm də Azərbaycan millətinə mənsub olan insanı özündə ehtiva edir.

## Heydər Əliyev milli qürur mənbəyi kimi

Azərbaycanlı olmağın fəxr, qürur mənbəyinə çevrildiyi başqa bir məqam isə Heydər Əliyevin 1970-ci illərdə dünya, xüsusən də qərb mətbuatının və ictimaiyyətinin diqqət mərkəzinə çıxması ilə bağlıdır. Ulu öndər 1969-cı ildə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra korrupsiya və rüşvətxorluqla amansız mübarizəsinə görə 1970-ci illərdə dünyanın, xüsusən də qərb mətbuatının diqqət mərkəzinə çevrilmişdi. 1980-ci illərdə Böyük Britaniyanın məşhur Tayms (Times) nəşri Heydər Əliyevi yüksək bacarıq və keyfiyyətlərinə görə “SSRİ-nin parlayan ulduzu" adlandıraraq onu Sovet İttifaqının növbəti rəhbəri olmağa əsas namizəd kimi qiymətləndirirdi. Beləliklə, Heydər Əliyev sovet dönəmindən

azərbaycanlıların ümumi fəxr, qürur mənbəyi olmaqla, milləti öz ətrafında birləşdirən amilə çevrilmiş və millət quruculuğuna sovet dövründə belə bir töhfə də vermişdir.

Amma Qorbaçov 1985-ci ildə hakimiyyət başına keçdikdən sonra, nəinki Heydər Əliyevin nəhəng potensialından ölkənin maraqları naminə istifadə etmədi, hətta onun ümumiyyətlə SSRİ-nin rəhbərliyindən kənarlşadırılmasına və faktiki olaraq ev dustaqlığı şəraitində qalmasına nail odu. Heydər Əliyevə qarşı repressiyalar onun ailəsindən də yan keçmədi. Oğlu İlham Əliyev məzunu olduğu və mühazirə dediyi Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda Heydər Əliyevin oğlu olduğu üçün işdən azad edildi. Təbii ki, bu məsələdə əsas bir səbəb Qorbaçovun Heydər Əliyevə qarşı olan şəxsi həsəd, qısqanclıq hissi və onun kölgəsində qalmaq kompleksi idi.

Amma digər, bəlkə də ən əsas səbəb Heydər Əliyevin Moskvada Azərbaycanın arxa- dayağı olaraq xalqın maraqlarını müdafiə etməsi və Azərbaycanda olan nüfuzu idi. Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılması və Azərbaycandan təcrid edilməsi Azərbaycana qarşı hazırlanan məkrli planların həyata keçirilməsinin tərkib hissəsi, xüsusən də Qarabağ münaqişəsinə hazırlıq kimi dəyərləndirilməlidir. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin Heydər Əliyevin istefasından bir neçə ay sonra 1988-ci ildə hazırladığı məxfi hesabatı da deyilənləri təsdiq edir. Qeyd edilən hesabatın hazırda üzərindən məxfilik götürülmüş müəyyən hissələrində 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmuş Heydər Əliyevin 1987-ci ilin oktyabrında qəfildən təqaüdə göndərildiyi bildirilir və bu qəfil hərəkətin səbəbi Azərbaycanın siyasi nüfuzunun məqsədli şəkildə azaldılması kimi təsvir edilir.

Bundan əlavə hesabatda qeyd olunur ki, eyni zamanda mətbuatda Heydər Əliyevə qarşı böyük qarayaxma kampaniyası aparılırdı. Hesabatda daha bir maraqlı məqam ondan ibarətdir ki, nəinki Heydər Əliyevin, hətta əslən rus olan Bakıda doğulmuş

SSRİ Dövlət Plan komitəsinin sədri vəzifəsini tutan Nikolay Baybakovun 1985-ci ildə vəzifəsindən uzaqlaşdırılması da Azərbaycanın siyasi nüfuzunun azaldılmasına yönəlmiş addım kimi xarakterizə olunur. Hesabat müəllifləri Baybakovu Azərbaycanın "etnik rus olmasına rəğmən doğma oğlu" adlandırırlar. Eləcə də onun SSRİ Dövlət Plan Komitəsinin sədri olaraq ölkədə resursların bölüşdürülməsində böyük təsirə malik olduğu qeyd edilməklə Baybakovun vəzifəsindən kənarlaşdırılmasında məqsədin Azərbaycana ayrılan iqtisadı resursların azaldılması olduğuna eyham vurulur. Nikolay Baybakovun Heydər Əliyevlə işgüzar və dostluq münasibətlərini və Azərbaycana olan bağlılığını nəzərə aldıqda məsələnin mahiyyəti daha da aydın olur. Heydər Əliyevə qarşı aparılan bütün kampaniyalara baxmayaraq, o, xalqının, milləti qürur mənbəyi olaraq qalırdı və sonrakı hadisələr də bunu qətiyyətlə sübut etdi. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan xalqının Heydər Əliyevə etibarı və etimadı onun tutduğu yüksək vəzifə və mövqeyə görə yox, ulu öndərin şəxsiyyətinə, millətinə fədakarcasına bağlılığına və göstərdiyi xidmətlərinə görə idi. Heydər Əliyev milləti yolunda fədakarlığını 1990-cı ilin yanvar hadisələri zamanı bir daha göstərdi.

## Heydər Əliyev-Azərbaycan xalqının sınmayan milli qüruru

Heydər Əliyevin bədxahları və Azərbaycana qarşı məkrli planlar quran qüvvələr cılız qarayaxma kampaniyaları ilə Heydər Əliyevin Azərbaycan xalqı üçün millət qurucusu rolunu neytrallaşdırmağa, onunla xalq arasında uçurum yaratmağa çalışırdılar. Xüsusən də erməni dairələri və ermənipərəst qüvvələr ilk növbədə Heydər Əliyevi millət qurucusu kimi görürdülər və Azərbaycanı belə bir nəhəng və unikal millət qurucusundan məhrum etmək istəyirdilər. Çünki tarix dönə-dönə sübut edir ki, münaqişələr, böhranlar və müharibələr zamanı milləti, xalqı ətrafında yumruq kimi birləşdirməyə qadir

liderin varlığı hadisələrin gedişatına həlledici təsir göstərir, millətin gələcək taleyinin müəyyən edilməsində öz sözünü deyir. Belə iradəli, qətiyyətli və müdrik lider xalqın sınmayan qürurunun və iradəsinin rəmzinə və təcəssümünə çevrilir.

ABŞ kəşfiyyatının yuxarıda istinad edilən 1988-ci il hesabatında qeyd olunur ki, Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılması və buna görə də Azərbaycanın mövqelərinin zəifləməsi fonunda ermənilər davamlı olaraq Qorbaçov tərəfindən yüksək siyasi vəzifələrə irəli çəkilir, bununla da Azərbaycanlılar Moskvanın Ermənistanın tərəfini tutmasını başa düşürdü. Həmin qeydlər də bu qənaətə gəlməyə əsas verir ki, Heydər Əliyev adi bir şəxsiyyət deyildi, o, hələ Azərbaycanın müstəqil dövlət olmadığı sovet dönəmində millət qurucusu və ümummilli lider kimi Azərbaycanın Moskvada və sovet rəhbərliyində təcəssümü idi. Ona görə də Heydər Əliyevin vəzifəsindən uzaqlaşdırılması və xalqından təcrid edilməsi ilk növbəti Azərbaycan millətini Qarabağ münaqişəsində başsız qoymaq, pərakəndə vəziyyətə salmaq məqsədini güdürdü. Eləcə də Heydər Əliyevə qarşı belə davranışla Azərbaycan xalqının milli qürurunu sındırmağa cəhd edirdilər. Təəssüflər olsun ki, Azərbaycanın o zamankı rəhbərləri bunu başa düşsələr də, şəxsi və ya qrup maraqlarını ümummilli maraqlarımızdan üstün tutaraq elə kampaniyaların qarşısını almağa nəinki cəhd etmədilər, bir sıra hallarda isə əksinə Heydər Əliyevə qarşı aparılan çirkin kampaniyaya qoşuldular. Bütün bunlara baxmayaraq, Heydər Əliyev yenə xalqını unutmadı və məhz onun şəxsi cəsarəti və uzaqgörənliyi sayəsində 20 yanvar hadisələri barədə həqiqətləri Moskvada ona qarşı olan bütün təhdid və məhdudiyyətlərə rəğmən dünyaya car çəkdi.

20 yanvarla bağlı Heydər Əliyevin həmin hərəkəti ona görə xüsusi önəm daşıyır ki, Moskvadakı ermənipərəst qüvvələr dinc nümayişləri İslamçı qüvvələrin hərəkatı kimi qələmə verməklə Azərbaycanın milli azadlıq və Qarabağ uğrunda mübarizəsini etibardan salmaq məqsədi güdürdülər. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin sözügedən hesabatında da oxşar süjet xətti nəzərə

çarpır. Hesabatda bildirilir ki, Sumqayıt hadisələri zamanı Azərbaycanlıların guya İranın o dövrdəki dini lideri Xomeyninin şəkillərini qaldırdıqları iddia olunur, Azərbaycanı İrana bağlamaq, baş verənləri dini motivli hadisə kimi qələmə vermək cəhdləri edilirdi. Bunun da arxasında Azərbaycanı ləkələməklə Ermənistanın maraqlarını təbliğ etmək məqsədi və Azərbaycan daxilində müxtəlif zəminli təfriqələrə yol açmaq niyyəti dayanırdı. Bu fonda 20 yanvarla bağlı Heydər Əliyevin qətiyyətli, uzaqgörən və fədakar davranışı onun şəxsiyyətinin böyüklüyünü, onun Azərbaycan üçün hansı misilsiz tarixi rol oynadığını və Azərbaycanı hansı məkrli qəsd və planlardan qoruduğunu bir daha bəlli edir.

## Heydər Əliyevin millət quruculuğunun Şuşa təntənəsi

Məqalənin əvvəlində qeyd etdiyim mütəfəkkirlər Azərbaycan millətinin təşəkkül tapib formalaşmasında və milli oyanışda mühüm rol oynamışdırlar. Eləcə də müxtəlif dövrlərdə Azərbaycanın görkəmli ictimai və dövlət xadimləri olmuşudr. Amma tarix və tale elə gətirmişdir ki, millət xadimləri dövlət xadimi, dövlət xadimləri isə millət xadimləri olmamışlar və yaxud ola bilməmişlər. Bu iki xüsusiyyətin bir şəxsiyyətdə üzvi surətdə, vəhdət halında və parlaq surətdə birləşməsi Heydər Əliyevin taleyinə yazılmışdır. O, eyni zamanda həm dövlət xadimi, həm də millət xadimi missiyasını yerinə yetirmişdir. Və hər iki missiyanı nəhəng miqyasda və digərləri ilə müqayisə olunmaz surətdə həyata keçirmişdir. Buna görə də Heydər Əliyev tarixə unikal və nəhəng millət və dövlət qurucusu kimi düşüb.

Ulu öndər, ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyini məhv olmaqdan xilas etdi, onu qoruyub saxlamağa, inkişaf etdirməyə müvəffəq oldu. Dövlət quruculuğu ilə yanaşı millət quruculuğu sahəsində də Heydər Əliyev böyük və ardıcıl işlərə imza atdi. Burada həm Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi, həm də onun əsasını qoyduğu multikulturalizm doktrinası vurğulanmalıdır. Ulu öndərin

Azərbaycançılıq məfkurəsi və multikulturalizm doktrinası mahiyyəti etibarı ilə onun dövlət və millət quruculuğuna yanaşma fəlsəfəsini özündə ehtiva edir.

Millət quruculuğu Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin və Əhməd bəy Ağaoğlunun dövründə nə qədər aktual və vacib idisə, zaman keçdikcə bu aktuallıq daha da artır və ehtiyac böyüyür. Çünki dövlətin və dövlətçiliyin qorunması milli şüurun inkişafından və millət quruculuğundan asılı olur. Millət nə qədər möhkəm əsaslara söykənirsə, milli birlik və millət nə qədər möhkəm tellərlə bərkidilirsə, dövlətin gələcəyi və dövlətçilik də bir o qədər etibarlı olur.

Zaman bunu 44-günlük Vətən müharibəsində bir daha sübut etdi. Millətimiz Heydər Əliyevin siyasi varisi, onun millət quruculuğu işinin ləyaqətli və ardıcıl davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ətrafında birləşərək “Dəmir Yumruğa" çevrildi və işğal edilmiş torpaqlarımızı düşmən tapdağından azad etdi. Heydər Əliyevin vəsiyyəti yerinə yetirildi. Şuşa və digər işğal altında qalan torpaqlarımız azad edildi. İndi böyük millət xadimi Heydər Əliyevin ruhu çox şaddır.

31 dekabrı dünya azərbaycanlılarının həmrəyliyi günü elan edən ulu öndər Heydər Əliyevin fərmanı və iştirakı ilə 1-ci qurultayı 2001-ci ildə Bakıda keçirilmiş dünya azərbaycanlılarının 5-ci qurultayı 2022-ci ildə Şuşada keçirildi, dünya azərbaycanlıları mədəniyyət paytaxtımız azad Şuşaya toplaşdı. Vətən müharibəsindəki böyük Zəfər həm də "Şuşa Azərbaycanın gözüdür", “Biz mütləq o torpaqlara qayıdacağıq" deyən ulu öndər, ümummilli lider Heydər Əliyevin millət quruculuğu fəlsəfəsinin və siyasətinin təntənəsidir.

# İBRAHİM YUSİFOĞLUNUN "O, GÜNƏŞ ÖMRÜDÜ, SÖNMƏYƏCƏKDİR" POEMASINDA HEYDƏR ƏLİYEVİN BƏDİİ OBRAZI HAQQINDA

## Giriş

Heydər Əliyev haqqında nəzm, nəzr və dram əsərləri janr müxtəlifliyi və mövzu rəngarəngliyi ilə fərqlənir. Xalq yazıçısı Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və Zaman" altı silddən ibarət olan roman-tədqiqatında, Xalq yazıçısı Anarın "Unudulmaz görüşlər" publisist-romanında, Xalq yazıçısı Elçinin "Dünya axirət əkini" essesində, Hidayətin "Burdan min atlı keçdi", Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", Aqşin Babayevin "Xilaskar", İftixar Piriyevin "Qurtuluş dastanı" kimi pyes və tamaşalarda, Cabir Novruzun "İxtiyarım olsa idi", Nəbi Xəzrinin "İnam", Rəfiq Zəka Xəndanın "Heydər baba", Zəlimxan Yaqubun "Xalqın ehtiyacı var" poemalarında və bu kimi digər əsərlərdə Heydər Əliyevin tam, dolgun bədii obrazı yaradılmışdır. Bu bədii nümunələrdə Heydər Əliyevin siyasi xadim, lider, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi obrazı canlı şəkildə tərənnüm və təsvir edilmişdir.

İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poeması 2023-cü ildə keçirilən Azərbaycan xalqının görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilib. Müəllif öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxartmağı bacarmış Heydər Əliyevin tarixi şəxsiyyət olmasını bədii dillə təbliğ edir.

## I. Poemanın janr xüsusiyyətləri

İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında hadisələr təhkiyə üsulu ilə təsvir olunur və təsvir olunan hadisələrin gedişində lirik lövhələrə geniş yer verilməkdədir. Poemadakı hadisələrin epik təsviri ilə lirik

tərənnüm üzvü surətdə birləşir. Poemada qəhrəmanın - Heydər Əliyevin həyəcanları, onunla bağlı təqdim edilən hadisələrin təsviri və onların doğurduğu hiss və duyğular yer alır. Poema heca vəznində qələmə alınması ilə diqqəti cəlb edir. Heca vəznində təqdim edilən misralardakı bölgülər əsasən 7, 8, 11 hecadan ibarətdir. Məsələn, aşağıda təqdim edilən bənd 11 hecadan ibarətdir:

***Onun böyük olub şöhrəti, şanı,***
***Qəlbində od vardı hələ yanmağa.***
***Elə ona görə Azərbaycanı,***
***Qoymadı içindən parçalanmağa.***

Aşağıdakı beytə diqqət yetirdikdə, burada heca bölgüsü 8 hecadan ibarətdir:

***Tanrıya çatdı səsimiz***
***- Heydər olsun rəhbərimiz!***

İbrahim Yusifoğlu bəzən bənd daxilində həm 7 hecaya, həm də 8 hecaya müraciət edir. Misralardakı hecalarda fərqlilik bölgü pozulmasını hiss etdirmir və şeirin ahənginə mənfi təsir göstərmir. Tələffüz zamanı həmin əksiklik duyulmur:

***Moskvaya qanlı xəbər***
***Gəlib çatdı sübh çağına.***
***Ulu Öndər gəldi səhər,***
***Azərbaycan ocağına.***

Hecaların sayı fərqli olan misralarda Azərbaycan xalqının 20 Yanvar faciəsinin təsviri fonunda Heydər Əliyevin siyasi fəaliyyətinə aydınlıq gətirilir. Xalqının bu ağır günündə H.Əliyevin onların yanında durması fəxr hiss ilə tərənnüm edilir. Heydər Əliyevin "Qanlı Yanvar" faciəsini yaşayan xalqını tək qoymamasını, onun yanında olmasını tarixi faktlara əsaslanaraq müəllif bayatı ilə təqdim edir. Müəllifin poemada təqdim etdiyi

bayatıya nəzər salaq:

***Bakı hər vaxt Bakıdı,***
***Şəhərlərin pakıdı,***
***Qolun qurusun, fələk,***
***Bura paytaxt Bakıdı.***

Müəllifin təqdim etdiyi bayatı 4 misradan ibarətdir. Hər misrası isə 7 hecadır. Qafiyə şəkli isə aaba şəklindədir. Müəllif poemada bu bayatını yaratması ilə kifayətlənmir, müxtəlif bayatılar yaradır. Məsələn, müəllifin yaratdığı digər bayatıya diqqət yetirək. Müəllif poemada 20 yanvar gecəsi şəhid olmuş İlham və Fərizə Allahverdiyevlərin, yəni bu ailə cütlüyünün faciəsini bayatı ilə təqdim edir:

***Qurban olum gəlinə,***
***Bir görmədim ərinə,***
***O, məzarda qovuşdu,***
***Şəhid olmuş ərinə.***

Nümunələrə diqqət yetirdikdə, müşahidə edirsən ki, ilk iki misralar üçüncü və dördüncü misralarda ifadə olunan əsas fikirlərin yaranması üçün zəmin rolunda çıxış edir. Təqdim edilən bayatılar ictimai-fəlsəfi məna daşıması, vətənə məhəbbət aşılaması ilə məhəbbət mövzusunu təbliğ edən bayatılardan fərqlənir.

İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasını epiqrafla başlaması diqqətdən yayınmır. Heydər Əliyevə aid olan epiqraf poemanın süjet xəttinə daxil olmasa da, poemanın mövzusu ilə səsləşən hikmətli sözlər kimi diqqəti cəlb edir. H.Əliyevə aid olan "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın

ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm…

Azərbaycan Respublikası bundan sonra müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir" kimi hikmətamiz fikirlər əsərin birinci səhifəsinin başında, yəni əsərin əvvəlində açıqlığı ilə səciyyələnən mətn parçası-kəsiyidir. Poemada intrasemiotik uyğunluq yaratmağa qadir olan bu epiqraf bədii mətnin komponenti kimi oxucunu ilkin mətnə istiqamətləndirə bilir. İbrahim Yusifoğlu istifadə etdiyi epiqrafın ifadə etdiyi məna ilə oxucunun diqqətini əsərin məzmununa yönəldərək, əsərin ideyası ilə tanış edir. Oxucu epiqrafla tanış olduqdan sonra poemanın kimdən bəhs edəcəyi haqqında bilgi əldə edir. Poemada bu və digər epiqrafların işlənilməsi poemanın məzmun və ideyasını qavramağa yardımçı olur.

Müəllif poemada bədii fikrin məntiqi ilə uzlaşan çoxsaylı epiqraflardan istifadə etmişdir ki, istifadə edilən epiqrafların da əksər qismi Heydər Əliyevə məxsusdur.

Mətnin semantik yükü ilə bağlı olan bu epiqraflara diqqət yetirdikcə onların poemanın əsas ideyası və məzmununu açmağa yardım etməsinin şahidi oluruq. İbrahim Yusifoğlu təqdim etdiyi epiqraflarla həm də poemanın məzmununa əlvanlıq qatır, açıqlamasına yardımçı olur. Bu epiqraflar həm poemada təsvir edilən hadisələrin mahiyyətinə aydınlıq gətirir, həm də Heydər Əliyevin Azərbaycanın azad və bütöv bir dövlət olacağına inamını əks etdirir. Məsələn, H.Əliyevin Şuşanın azad olunacağı ilə bağlı olan inamı poemada təqdim edilən epiqrafda əksini tapır: "Arzu edirəm ki, Sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür. Hər bir azərbaycanlı üçün bu iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətizmizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhəri,

Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o isti suyu... Biz onlarsız yaşaya bilmərik".

İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikirlərinin epiqraf kimi təqdimi maraq doğurur. Şairin təqdim etdiyi bu epiqrafda Azərbaycan Ordusunun qələbə qazanması, Azərbaycan torpaqlarının azad olunması poetik dillə təqdim edilir. İlham Əliyevin fikirlərini əks etdirən bu epiqrafda həm də ata vəsiyyətini yerinə yetirmiş insanın qüruru əksini tapır: "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim! Bu böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!

***Gözün aydın olsun, Azərbaycan!***
***Gözün aydın olsun, dünya azərbaycanlıları!***
***Füzuli bizimdir!***
***Cəbrayıl bizimdir!***
***Zəngilan bizimdir!***
***Qubadlı bizimdir!***
***Ağdam bizimdir!***
***Laçın bizimdir!***
***Kəlbəcər bizimdir!***
***Şuşa bizimdir!***
***Qarabağ bizimdir!***
***Qarabağ Azərbaycandır,***
***Eşq olsun Azərbaycana!"***

İbrahim Yusifoğlu poemada zaman anlayışına riayət edərək, xronoloji ardıcıllığı izləyir. Poemada Heydər Əliyevin xalqın keçirdiyi təlatümlü tarixi olaylardan sonra hakimiyyətə gəlməsini konkret tarixlə əks etdirir:

***1969-cu il…***
***Bir gün idi, günəşli gün,***

***Üzlər gülər, gözlər süzgün,***
***Qəlblər gəzdi xoş səda-ün,***
***Bərq də vurdu ləl-zərimiz,***
***Heydər gəldi rəhbərimiz***

İbrahim Yusifoğlu poemada 1990-ci ildə baş vermiş tarixi olayları konkret zaman axarında əks etdirir:

***20 yanvar… qış çağı…***
***İçdik namərd zəhərini…***
***«Şanlı sovet qoşunları»***
***Qırıb Bakı şəhərini!***

İbrahim Yusifoğlu poemada məkan kimi həm Bakının, həm Naxçıvanın gözəlliklərini, özünə məxsusluqlarını təqdim edə bilir. Məsələn, Naxçıvanın özünəxas xüsusiyyətlərini əsərdə əks etdirir:

***Naxçıvan… Ulu şəhər,***
***Günəşlə bir oyanır.***
***Bütün küçə, xiyaban***
***Al şəfəqə boyanır.***

## II. Poemanın problematikası

Heydər Əliyevin dövlət xadimi olması, çoxəsrlik dövlətçilik ənənələri İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasının problematikasında əksini tapır. "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin əks etdirilməsini İbrahim Yusifoğlu bir müəllif kimi özü də vurğulayır:

***Bir insan ömründən söz açıram mən,***
***O, günəş ömrüdü, sönməyəcəkdir.***

***Səadət verdiyi milyonlar qəlbən,***
***Onun haqq yolundan dönməyəcəkdir.***

Poemanın problematikasında diqqəti cəlb edən məqamlardan biri də Heydər Əliyevin siyasi kursunun dəyərləndirilməsi məqamıdır. Müəllif H.Əliyevin siyasi fəaliyyətini yüksək dəyərləndirməklə yanaşı, onun bir siyasi xadim kimi atdığı əməllərinə də işıq salır. Məsələn, Heydər Əliyevin atəşkəş dövründə də siyasi ampulada qala bilməsini tərənnüm edir:

***Atəşkəs dövründə Ulu Öndərin,***
***Ordu qurmaq oldu, müqəddəs anı.***
***Müstəqil, müdrik siyasətiylə,***
***Yenidən qururdu Azərbaycanı.***

Heydər Əliyevin siyasətinin nəticəsi olan atəşkəs dövründə Azərbaycanın dirçəlməsi uğrunda siyasi fəaliyyətlə məşğul olması poemanın problematikasının tərkib hissəsinə çevrilib. Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi özünüdərketmənin Heydər Əliyev siyasətinin, milli dövlətçilik təliminin ana xəttini təşkil etməsini və əsas prinsiplərindən olması poemada əksini tapır.

Poemanın problematikasında sələflik, xələflik, varislik məsələlərinə toxunulur. Şair tərəfindən Heydər Əliyevin siyasi yolunun oğlu İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi vurğulanır:

***Ata vəsiyyətin oğul Prezident,***
***Doğrultdu müqəddəs əməllərində.***
***Yenilməz bir ordu qurub-yaratdı,***
***Dünyanın qarışıq, sərt illərində.***

Ədəbiyyata qayğı və böyük xidmətlər göstərmiş Heydər

Əliyevin bu sahədəki xidmətləri saymaqla bitmir: Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov kimi söz xiridarlarının Sosialist Əməyi Qəhrəmanı adı ilə təltif edilməsi, "Kitabi-Dədə Qorqud" dastanının yaranmasının 1300, Xaqani Şirvaninin 850, Nizami Gəncəvinin 840, İmaməddin Nəsiminin 600, Məhəmməd Füzulinin 500, Cəlil Məmmədquluzadənin 125, Mirzə Ələkbər Sabirin 120, Nəriman Nərimanovun 100, Məhəmməd Hadinin 100, Əliqulu Qəmküsarın 100, Hüseyn Cavidin 90, Cəfər Cabbarlının 80, Aşıq Şəmşirin 80 və 110, Rəsul Rzanın 60 və 70, İlyas Əfəndiyevin 80, Məmməd Arazın 60, Məhəmməd Hüseyn Şəhriyarın 90, Maqsud İbrahimbəyovun 60, İsmayıl Şıxlının 75, Nigar Rəfibəylinin 60, Nəbi Xəzrinin 50, Mirvari Dilbazinin 70 illik yubileylərinin qeyd edilməsi, Cəfər Cabbarlının, Molla Pənah Vaqifin, Hüseyn Cavidin, Səməd Vurğunun ev muzeylərinin açılması, Hüseyn Cavid, Vaqif məqbərələrinin açılışı, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, Şüvəlanda Yaradıcılıq evinin istifadəyə verilməsi, Hüseyn Cavidin nəşinin Vətənə qaytarılması, ilk dəfə təsis olunmuş "İstiqlal" ordeni ilə Məmməd Arazın, Xəlil Rza Ulutürkün (ölümündən sonra), Bəxtiyar Vahabzadənin təltif edilməsi və s.
İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin ziyalılara qayğısı müəllifin nəzərindən yayınmamış, ziyalılara verdiyi dəyər qiymətləndirilmişdir:

***Çox yazarlar ad aldılar,***
***Çox dahilər ucaldılar,***
***Zəhmətindən güc aldılar,***
***Vardı ümman hörmətimiz,***
***Heydər baba rəhbərimiz.***

## III. Poemanın bədii obrazları

Heydər Əliyevin Azərbaycan ədəbiyyatında bədii obraz kimi şair və yazıçılar tərəfindən əks etdirilməsi onun hakimiyyətə gəldiyi dövrdən başlayır. Akademik İsa Həbibbəyli həm sovet, həm də Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazının işlənilməsi məqamlarına toxunmuş, "Sovet hakimiyyəti illərində Azərbaycan yazıçıları Heydər Əliyevin simasında mənsub olduğu xalqın milli iftixar mənbəyi olan, ölkəni tanıdan və inkişaf etdirən görkəmli dövlət xadiminin obrazını" canlandırmalarını, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında isə Heydər Əliyevin xilaskar obrazı yaradılmış, böyük ədəbiyyat onun milli dövlətçiliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsindəki rolunu bədii sözün bütün vüsəti ilə təsvir və tərənnüm etməyə səfərbər" olmalarını qeyd etmişdir. İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında bu ənənənin davam etdirilməsinin şahidi oluruq. Poemada Heydər Əliyevin obrazı dolğun şəkildə təqdim edilir:

***Köksündə döyünən odlu ürəklə,***
***Elinə məhəbbət bəsləyirdi O.***
***Hər zaman müdrik siyasətiylə,***
***Dünyanı birliyə səsləyirdi O.***

İbrahim Yusifoğlu qələmə almış olduğu "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında obrazın zahiri görünüşünü təsvir etməklə bərabər, təsvir etdiyi obrazın keçirdiyi nigarançılıq, təəssüf, sevinc, kədər və s. hissləri də təsvir edir ki, bu da obrazın daxili portretini oxucunun gözündə canlandırır:

***Qəlbində nisgilli dərd çağlayırdı,***
***Vətənin talanan sərvət-varına.***
***Ömrünün müqəddəs işi sayırdı,***
***Qaytarsın xalqını torpaqlarına***

İbrahim Yusifoğlunun poemasında Heydər Əliyevin “çekist” obrazında təqdim edilməsi maraq kəsb edir. Belə ki, dövlət təhlükəzsizliyi sahəsindəki böyük və əvəzsiz xidmətlər göstərmiş, siyasətçi nəsli, gələcəyin dövlət adamları üçün örnək sayılmalı obraz kimi Heydər Əliyevin milləti qarşısındakı fəaliyyəti millətinə olduğu kimi çatdırılmalıdır. İbrahim Yusifoğlu poemada H.Əliyevin dövlət təhlükəzsizliyi sahəsindəki xidmətlərini əks etdirməsi faktını qısa şəkildə açıqlamağa cəhd etmişdir:

***Belə bir qarışıq, təzadlı anda,***
***Səfalət almışdı bütöv hər yanı.***
***Qeyrətli bir oğul zərli paqonda,***
***Qəlbən qoruyurdu Azərbaycanı.***

Poemada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin epizodik şəkildə olsa da, dolğun obrazının təqdimi ilə üzləşirik. İbrahim Yusifoğlu bu məqamı triadada təqdim edir. İlham Əliyevin monoloqu kimi təqdim edilən nitqindəki təntənədə biz İlham Əliyevin obrazını Heydər Əliyev siyasi kursunun davamçısı olmasında, Vətən Müharibəsindəki Zəfər təntənəsində görə bilirik:

***Baş əydi, dik baxdı, salamlaşdı da,***
***O, ulu öndərin abidəsiylə.***
***Zəfər sevincini çatdırdı ona,***
***Qələbə ovqatlı məğrur səsiylə:***

***- Salam, gözün aydın, ruhun şad olsun, ata,***
***Sənin vəsiyyətin yerinə yetdi.***
***Döndü oğulların dəmir yumruğa,***
***Qarabağ torpağı azad edildi.***

## IV. Poemanın bədii dili

İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasının bədii dili ilk növbədə dolğunluğu ilə diqqəti cəlb edir. Poemada dialektizmə, arxaizmə və s. müraciət edilmə poemanın dilinin zənginləşməsinə səbəb olmuşdur. Poemada dialektizmlərə müraciət edilmə məqamı maraq kəsb edir. Məsələn, şair mənfur qonşuların siyasətini işıqlandırarkən, fikirlərini dialekt sözlərlə ifadə edir:

***Ancaq düşmən marıxdaydı,***
***Yol gedirdi, çarıxdaydı,***

Mənası pusqu, səngər olan "marıx" və ya "marığ" sözünün Bakı, Naxçıvan, Culfa, Ordubad, Cəbrayıl, Cəlilabad, Salyan, Şərur, Daşkəsən, Kəlbəcər, Xanlar, Masallı, Oğuz və digər bölgələrimizdə xalq tərəfindən işlənilməsinin şahidi oluruq. Məsələn, "Bı dəyqə hammısı marığa yatıp görsün mən nə deyirəm" (Naxçıvan), "Bıra marığ kimi yerdi (Salyan), "Elə bil pişigdi, marığda durıb" (Cəlilabad), "Tülkü marıxdan keşdi" (Kəlbəcər), "Neçə gündü kü, marıxda durmuşam (Xanlar), "Tula qırqo:lun marığında duruf" (Oğuz) və s. İbrahim Yusifoğlu da "ancaq düşmən marıxdaydı" misrasında düşmənin, yəni ermənilərin pusquda durmalarına işarə edir.

Müəllifin işlətdiyi "çarıx" (çarıq) sözü köhnəlmiş söz kimi, yəni arxaizm kimi diqqəti cəlb edir. Bəllidir ki, keçmişdə kəndlilərin geydiyi aşılanmış dəridən tikilən ayaqqabılar, həmçinin yüngül ev ayaqqabıları çarıx (çarıq) adlanırdı. Məsələn, "Keçəl Həmzə çarığını geydi, patavasını bərkitdi" ("Koroğlu"), "Vəliqulu kənarda çömbəlib başladı çarıqları çıxartmağa" (C.Məmmədquluzadə) və s. İbrahim Yusifoğlu da "Yol gedirdi, çarıxdaydı" misrasında dilimizdə işlənməyən köhnəlmiş sözə müraciət edir.

Poemanın bədii dilində müəllifin xitablara müraciət etməsi də diqqəti cəlb edir. Məsələn, şairin Ümummilli liderə "Baba" deyə müraciət edilməsi məqamına nəzər salaq:

***O qədər qəm-qüssə var canımızda,***
***Neçə çiçək vaxtsız solmuşdu, Baba.***
***Ağır anımızda, dar çağımızda,***
***Hamı siyasətçi olmuşdu, Baba.***

İbrahim Yusifoğlu Heydər Əliyevə xitab edərkən, "Baba", "Heydər baba" və s. kimi xitablarla müraciət etməsinin şahidi oluruq:

***Heydər baba, həyatda,***
***Bu gün, sabah da varıq.***
***Firəvan günlər üçün,***
***Biz sənə minnətdarıq.***

**Nəticə**

İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin siyasi fəaliyyətinin, xidmətlərinin bədii şəkildə təqdim edilməsi təqdirəlayiqdir. "O, Günəş ömrüdü, sönməyəcəkdir" poeması Heydər Əliyevin bir tarixi şəxsiyyət kimi rəhbərlik etdiyi dövlətin azadlığı və dirçəlişi yolunda apardığı mübarizəni bədii dillə tərənnüm edir. İbrahim Yusifoğlu "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin keçdiyi şərəfli, həmçinin keşməkeşli həyat yolunun heç də asan və hamar olmadığını açıqlamışdır. Müəllif zaman kəsiyində mürəkkəb, ziddiyyətli dövrün içindən müdrikliklə, qalibiyyətlə keçib gələn Heydər Əliyevin obrazını canlandırmışdır.

**Salidə ŞƏRİFOVA**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,**
**filologiya elmləri doktoru, AMEA-nın professoru,**
**Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**

# O, GÜNƏŞ ÖMRÜDÜ, SÖNMƏYƏCƏKDİR
**(Poema)**



Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm…

Azərbaycan Respublikası bundan sonra müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir.

**HEYDƏR ƏLİYEV,**
**Ümummilli lider**

## ÖN SÖZ

Bir insan ömründən söz açıram mən,
O, Günəş ömrüdü, sönməyəcəkdir.
Səadət verdiyi milyonlar qəlbən,
Onun haqq yolundan dönməyəcəkdir.

O ömür Tanrının nur payı kimi
Bütöv bir cahana səpələnibdir.
Doğma Araz kimi, Kür çayı kimi,
Ana torpaq üçün ləpələnibdir.

Köksündə döyünən odlu ürəklə,
Elinə məhəbbət bəsləyirdi O.
Hər zaman müdrik siyasətiylə,
Dünyanı birliyə səsləyirdi O.

Onun böyük olub şöhrəti, şanı,
Qəlbində od vardı hələ yanmağa.
Elə ona görə Azərbaycanı,
Qoymadı içindən parçalanmağa.

Dəf etdi ən çətin, qorxunc anları,
Müstəqil bir dövlət qurdu, yaratdı.
Dünyanı titrədən bəyanatları,
Xalqını tanıtdı, azad yaşatdı.

Elə şirin nemət, bəxşiş verib ki,
Hamının arzusu yetişir kama.
Yurdunu o qədər qəlbən sevib ki,
Onu tapşırıbdı oğlu İlhama!

Bir insan ömründən söz açıram mən,
O, Heydər ömrüdü, sönməyəcəkdir.
Canıtək sevdiyi milyonlar qəlbən,
Onun haqq yolundan dönməyəcəkdir!

* * *



XX əsrin ikinci yarsı,
Sovetlər ölkəsi düşdü çətinə.
Gözləri nəmlədən Stalin yası,
Tuş gəldi Xruşovun siyasətinə.

Arxivlər açıldı, şahidlər dindi,
Göründü «sarsılmaz» elin varlığı.
Hamıya söyləndi, hamıya çatdı,
«Ellər atası»nın zülmkarlığı.

Elini, dilini sevən millətin,
Seçmə övladları «xalq düşməni»ydi.
Yalanın, böhtanın, acı zillətin,
Bəhrəsi saçlarda qırov, çəniydi.

Çoxu göndərildi gedər-gəlməzə,
Çoxu mühakimə edilməmişdi.
Mircəllad özünü vurdu bilməzə,
Guya çox işləri o, bilməmişdi.

Unudub ömürlük kökünü, soyu,
Çıxmışdı Vətənin oğulluğundan.
“Xəbərsiz olmuşdu” on illər boyu,
Xalqını yadlara boğdurduğundan.

Elin birliyini yadlar pozanda,
Cavidlər Sibirdə donub öldülər.
Şair duyğusunu nadan yozanda,
Müşfiqlər qəlblərə qonub öldülər…

Vədlər verilirdi: sovet quruluşu
Dünyada fırtına qoparacaqdır.
Yeni Baş Katibin siyasi kursu,
Xalqı kommunizmə aparacaqdır...

Narahat edirdi bu sərsəm vədlər,
Siyasi Büroda olanları da.
Daha qoymadılar aşıla hədlər,
Yersiz səfərləri qaldı yarıda.

Belə bir qarışıq, təzadlı anda,
Səfalət almışdı bütöv hər yanı.
Qeyrətli bir oğul zərli paqonda,
Qəlbən qoruyurdu Azərbaycanı.

Buludlar yarıldı, göründü hər yan,
Odlar Yurdu nurla, şəfəqlə doldu.
Tanrı göndərdiyi O Böyük İnsan
Xalqının əbədi lideri oldu.

***



Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul (1969) plenumunda Heydər Əliyev AKP MK-nin birinci katibi, MK-nin büro üzvü seçilmişdir.

**SİTA-nin məlumatından.**

1969-cu il…
Bir gün idi, günəşli gün,
Üzlər gülər, gözlər süzgün,
Qəlblər gəzdi xoş səda-ün,
Bərq də vurdu ləl-zərimiz,
Heydər gəldi rəhbərimiz.

Göz oxşadı çöl-laləlik,
Hər gün şənlik, qələbəlik,
Mənalıydı tələbəlik,
Qalmamışdı dərd-sərimiz,
Heydər idi rəhbərimiz.

El-obaya can gəldi, can,
Gülüstana döndü hər yan,
Dünya gəzdi Azərbaycan,
Xoş gəlirdi illərimiz,
Heydər idi rəhbərimiz.

"Ağ qızıl"dan dağ dururdu,
"Qara qızıl" bərq vururdu.
Al bayraqlar şan – qürurdu,
Artdı milli sərvətimiz,
Heydər idi rəhbərimiz

Bağ-baxçaya bar ələndi,
Tarlalara var ələndi,
Ay, ulduzdan nur çiləndi,
Xoş gəldi hər səhərimiz,
Heydər idi rəhbərimiz.

Çox yazarlar ad aldılar,
Çox dahilər ucaldılar,
Zəhmətindən güc aldılar,
Vardı ümman hörmətimiz,
Heydər idi rəhbərimiz.

Ürəkləri sevgi aldı,
Eldən-elə körpü saldı,
Ədalət də zəfər çaldı,
Əməlləri, ruhu təmiz,
Heydər idi rəhbərimiz.

Dəvət aldı Moskvaya,
Ucaldıq ulduza, aya,
Çox sevindik qismət-paya,
Gəldi Bürodan səsimiz
Heydər baba - sərvətimiz!

Dünya dedi: Güclü əldi,
Səsi BAM-dan, Çindən gəldi,
Çökmüş məmləkət dirçəldi,
Gözəlləşdi ellərimiz --
Heydər idi rəhbərimiz.

Acgöz qonşu dinənmirdi,
Nə eyləsin, bilənmirdi,
Qorxub torpaq dillənmirdi,
Qorundu kənd, şəhərimiz,
Heydər idi rəhbərimiz.

Fəqət düşmən marıxdaydı,
Yol gedirdi, çarıxdaydı,
Gücü saxta tarixdəydi,
Göz dağıydı Öndərimiz --
Heydər idi rəhbərimiz.

Yaltaq "yan"lar dil tökdülər,
Qorbaçova diz çökdülər,
Təqaüdə göndərdilər.
Qəlbimizdə yaşatdıq biz
Heydər baba rəhbərimiz

Axır yadlar qurma qurdu,
Üstümüzə saldı ordu,
Sinəmizə yara vurdu,
Tanrıya çatdı səsimiz:
- Heydər gəlsin rəhbərimiz!

* * * *




***...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdı.***

**HEYDƏR ƏLİYEV.**
**21 yanvar 1990-cı il. Moskva**

20 yanvar… qış çağı…
İçib namərd zəhərini…
«Şanlı sovet qoşunları»
Qırdı Bakı şəhərini!

Dağ çəkdilər sinələrə,
Dünya belə dağ görməyib!
Kim qoşulub haqq səsinə,
Öz canını sağ görməyib!

Qan ediblər gecə yarı,
Nə vecinə özgə, yadın.
Dəhşətə bax, Ulu Tanrı:
Güllələnib uşaq, qadın!

Haqq səsinə səs qatanlar,
Səhv addımlar atmayıblar.
Evlərinə can atanlar,
Qapısına çatmayıblar.

Necə tutum tox özümü,
Elimin matəm çağıdı.
Deyə bilmərəm sözümü,
Dilimdəki qəm, ağıdı:

- Gözlərim qan ağlayır,
Sinəmi qəm dağlayır,
Gələ bilmərəm Bakı,
Yolu fələk bağlayır.

Bakı hər vaxt Bakıdı,
Şəhərlərin pakıdı
Qolun qurusun, fələk,
Bura paytaxt Bakıdı.

Unum keçmir ələkdən,
Baş açmıram kələkdən,
Hər şey gözləmək olar,
Belə qansız fələkdən.

Dilimizdə ağıdı,
Köksümüz qəm dağıdı,
Bakıya qoşun yığan,
Xilaskar yox, yağıdı!

Sinəm polad saçımdı,
Millət qeyrət tacımdı.
«Qardaş» deyib saç yolan,
Bacı mənim bacımdı!

Qurban olum gəlinə,
Bir görmədim ərinə,
O, məzarda qovuşdu,
Şəhid olmuş ərinə.

Qardaşım yaralıdı,
Ürəyi paralıdı.
Yol vermirlər gəlməyə,
Bakı çox aralıdı.

Mərkəz ara qatandı,
Xalqıma şər atandı.
Qəzetləri bir yana,
«Zaman» yalan satandı.

* **



Moskvaya  qanlı xəbər
Gəlib çatdı sübh çağına.
Ulu Öndər gəldi səhər,
Azərbaycan ocağına.

Çəkinmədi hədələrdən,
Lider kimi öndə durdu.
Sarı, iblis vəhşilərlə
Odlanmışdı Odlar Yurdu.

Qəlb titrədən bəyanatla,
Bu vəhşilik lənətləndi,
Bircə-bircə adlarıyla,
Günahkarlar cərgələndi.

Bu bəyanat canilərin,
Başlarına od ələdi.
Qorbaşov tək sərsəmlərin,
Taxt-tacları silkələndi

Bu bəyanat çaşqın xalqı,
Qaytarmışdı öz çağına.
Seçib düzü, tapıb haqqı,
Güvəndik Heydər dağına.

* * *



…Mən doğma torpağıma, Naxçıvana, Naxçıvan Muxtar Respublikasına hədsiz məhəbbətimi bir daha bildirmək istəyirəm. Bilin ki, mən sizə həmişə sadiq olmuşam, bundan sonra da sadiq olacağam. Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq qalacağam. Azərbaycanın dövlət müstəqilliyi yolunda bundan sonra da fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır.

**HEYDƏR ƏLİYEV**
**Ümumilli lider**

Çaylar, göllər, dənizlər yox,
Kükrəyirdi okeanlar.
Azərbaycan yaşayırdı
Fırtınada qorxunc anlar.

Dalğaların uğultusu
Yayılmışdı çox ellərə.
Okeanın açar-pultu,
Verilmişdi yad əllərə.

Qorxu, hədə harayından
Millət yaman bayılmışdı.
Tam günahsız bir məmləkət
Cinayətkar sayılmışdı.

Yurdumuza gələn bəla
Qəlb ağrıtdı, sinə dəldi.
Anaların ağısından
Göy ağladı, yer kövrəldi.

**Kimsə…**
kimsə öz xalqının
harayına yetməliydi.
Zil qaranlıq gecələrdə
Ömrü mayak etməliydi.
Dalğaları yara-yara
Azadlığa getməyibdi.

İmperiya buxovunu
Mərd bir oğul qırıb atdı.
Öz xalqının harayına
Ulu Öndər Heydər çatdı.

Gəldi doğma Bakısına,
Yollar, izlər sökülmüşdü.
Sanki qorxunc zəlzələdən,
Hər şey çölə tökülmüşdü.

Gəldi doğma Bakısına,
Yaşamağa yer istədi --
vermədilər!
Söyləməyə söz istədi --
vermədilər!

Bir şəhəri tikən memar
evsiz qaldı.
Yüz cilidlər yazan yazar
sözsüz qaldı.
Çoxlarının nadanlığı
Yaman ağır gəldi ona.
Səmaları yarıb gəldi
Ana yurdu Naxçıvana!

Onun qəfil gəlişindən,
Yer üzünə ələndi zər.
Peyğəmbərtək qarşılandı
Naxçıvanda Ulu Öndər.

Yamancana sarsılmışdı
İnsanların hallarına.
Onlar tezcə dönməliydi
Öz işıqlı yollarına.

İmdad güdən dərdli gözlər
Dikilmişdi gözlərinə.
Öndə görüb xilaskarı
Gəlmişdilər özlərinə.

Ən böyük dərd — Naxçıvanı
Etmişdilər yalqız ada.
Yerdən, göydən bu diyarı
Bürümüşdü blokada.

Rəhbər kimi yaşamaq da
Bu diyarda çətin idi.
Ulu Öndər öz işində
Bütöv idi, mətin idi.

Tanrıdan xoş dualarla,
İnsanlara sülh dilədi.
Qoca Şərqin səmasından
Günəş kimi nur ələdi.

Az zamanda el səsini
Gur səslənən səsə qatdı.
Qorxuları, yalanları
Ürəklərdən silib atdı.

Bu azadlıq savaşında
Yol yox idi daha geri.
Naxçıvanda məhv olurdu,
İmperiya -- SSRİ.

Dədə Heydər seçimində
Haqq, ədalət yolun seçdi.
Blokada sipərini
Siyasətlə yarıb keçdi.

Qardaş əli yetməyirdi
Qardaşına yüz il bəri.
Min ümidlə saldırdı O,
Araz üstə körpüləri.

Atatürkdən miras qalan
Torpaqlar dada çatdılar.
Sayın Dəmirəl, Ulu Heydər
"Ümid körpüsü" açdılar.

Yüz illərin ayrıları
Bu körpüylə yovuşdular.
Yalqız qalan Nəqşicahan
Türk eliylə qovuşdular.

Gündəm olan Qars sazişi,
Dillərdə çox çözələndi.
İncə, müdrik siyasətlə,
Bu saziş də təzələndi.

Bəd xəbərlər yayılırdı,
Gözlənirdi qırğın hər an.
Gizli, aşkar bölünürdü
Bölgələrə Azərbaycan.

Sanki, bizə bəs deyildi,
Qarabağın qara baxtı.
Bir qardaşın gülləsiylə,
Bir qardaşın qanı axdı.

Vətənin hər bölgəsində
Yad tonqallar çatılmışdı.
Hərə bir cür düşüb tora
Döyüşlərə qatılmışdı.

Bakı coşub hayqırırdı:
-- Bunu hamı bilməlidi,
Bu ölkəni yaşatmağa
Yalnız Heydər gəlməlidi!

Ulu Öndər gəlməlidi,
Bütün səddi yıxmalıdı.
Azərbaycan xoş günlərə --
Qurtuluşa çıxmalıdı!

***



…Azərbaycan böyük fəlakət qarşısında idi. Azərbaycan parçalanmaq təhlükəsi ilə qarşılaşmışdı. Azərbaycanı parçalanmaq təhlükəsindən qurtarmaq çox ağır və çətin vəzifə idi. Bu gün iftixar hissi ilə demək olar ki, biz bunun öhdəsindən gəldik və Azərbaycanı bu böhran vəziyyətindən çıxardıq.

**HEYDƏR ƏLİYEV,**
**Ümummilli lider**

Qanlı döyüş getdi torpağımızda,
Yadlara verildi neçə el-oba.
Ağır günümüzdə, dar anımızda,
Çatdın dadımıza ay, Heydər Baba.

O qədər qəm-qüssə var canımızda,
Neçə çiçək vaxtsız solmuşdu, Baba.
Ağır anımızda, dar çağımızda,
Hamı siyasətçi olmuşdu, Baba.

Nə bağbanlıq edən, nə bağlar qaldı,
Nə də ki, torpağa toxum əkildi.
Taxıl zəmisini alaqlar aldı,
Çörək təknələrdən göyə çəkildi.

On ilə on sözü yaza bilməyən,
Millətə «Əlifba» təbliğ eylədi.
Dilini yad dilə dustaq eyləyən,
Xalqa millilikdən şeir söylədi.

Çoxları qorudu vəzifəsini,
Görmədi vətəndə çən-duman nədi.
Onlar eşitmədi top səslərini,
Bilmədi, bu gedən müharibədi.

Hamı siyasətdən danışdı, Baba,
Çörək yeyəndə də, yol gedəndə də.
O qədər «talantlı» oldular, vallah,
Göstəriş verdilər prezidentə də!

Bəli, döyüş getdi torpağımızda,
Yadlara qalmışdı neçə el-oba.
Ağır günümüzdə, dar anımızda
Xalqı bəlalardan qurtardın, Baba.

***






Heydər Əliyev muzeyi Naxçıvan MR Ali Məclisinin 18 fevral 1999-cu il tarixli Sərəncamı ilə yaradılmışdır. 1999-cu il mayın 10-dan fəaliyyət göstərir. Naxçıvan şəhərinin Azadlıq prospektində yerləşir. Muzeydə Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan MR Ali Məclisinin Sədri işlədiyi dövrə (1991-1993) aid şəxsi sənəd və materiallar, imzaladığı məktub, qərar və sərəncamlar toplanmışdır.

**«Naxçıvan ensiklopediyası», Azərbaycan Milli Elmlər Akademiyası, Bakı-2002, səh.179**

Naxçıvan… Ulu şəhər,
Günəşlə bir oyanır.
Bütün küçə, xiyaban
Al şəfəqə boyanır.

Tikilən məbədlərin
Sayı artdı, çoxaldı.
Ən gözəli daşıyır
Heydər Əliyev adı.

Şəhərin Xan dikində
Bir bina var, yox tayı.
Heydər Əliyev adlı
Mədəniyət sarayı.

Bir məbədin təmizdi
Həm havası, həm təbi.
Hamı üçün əzizdi,
Heydər baba məktəbi.

Bu torpağa əbədi
Bağlıyıq canımızla.
Bakıda qovuşuruq
Heydər Əliyev adlı
Hava limanımızla.

Naxçıvana gələnlər
Ona qəlbən vurulur.
Cənnəti xatırladan
Heydər parkı qurulur.

Əcəmi seyrəngahı
Güllərdən çələng bağlar.
İlin hər çağı burda
«Heydər bulağı» çağlar.

Haqqında yazmadığım
Neçə- neçə məbəd var.
Onlar Ulu Öndərin
Adını daşıyırlar.

Şəhərin mərkəzində
Ən əzəmətli bina.
Ehtiram göstəririk
Hərarətlə biz ona.

Görkəmi də, adı da,
Bizə doğma, əzizdi.
Çiçəkləri, gülləri,
Ətirlidi, ləzizdi.

Bura Odlar Yurdunun,
Güneyi, quzeyidi.
Bu Heydər Əliyevin,
«Xatirə  muzeyi»di.

Ürəyində hər kəsə,
Böyük sevgi bəsləyən,
Yer üzünü həmişə
Ədalətə səsləyən,
Doğma el-obasını
Heç vaxt qoymayan darda,
Onlarla nəfəs alan
Olsa da harda… harda,
O dahinin ömrüdü
Yaşayan tablolarda.

Hər qərar, sərəncamın
Bəhrəsi bu elindir
Sonluqdakı imzalar
Heydər Əliyevindir

Burda hamı özünü
Müqəddəs yerdə sayır.
Axı, nurlu muzeydə
Günəş ömrü yaşayır.

* * *



**Hərbi məktəblərdən yüksələn şərqi.**

Ömrünü şam eyləyib,
Yanmısan gilə-gilə.
Yüksəliş bəxş eylədin,
Ötən hər aya, ilə.

Tanrı səni yetirdi
Xalqının dar günündə.
Xilaskar sərkədətək,
Durdun elin önündə.

Günəşin nuru kimi,
Ürəklərə dolubsan.
Öz xalqına sevimli,
Ulu Öndər olubsan.

Gülüstana dönübdü,
Yurdumuzda el-oba.
Bu müstəqil dövlətin

Memarı Heydər baba!

Əməllərin gül açdı,
Çatdıq şöhrətə-şana.
Sən öndərsən əbədi,
Yurdum Azərbaycana.

Heydər baba, həyatda,
Bu gün, sabah da varıq.
Firəvan günlər üçün,
Biz sənə minnətdarıq.

***



Xəlqin iradəsi zülməti yardı,
Mavi göylərinə zər taxtı Bakı.
İstiqlal məşəli köksünü sardı,
Müstəqil dövlətin paytaxtı Bakı!

Fərsiz siyasəti rəhbər bəylərin,
Məhvə aparırdı azadlıq ləli.
Elin Xəzər boyda istək, səyləri.
Bakıya gətirdi ulu Heydəri.

Bu nurlu gəlişdən qara qüvvələr,
Qara əməllərdən qorxdu,dayandı.
Qəlblərdə buzlaşmış soyuq ürəklər,
Azadlıq eşqiylə alışıb,yandı.

Təlaşla dolaşdı Ulu Gəncəni,
Onu gördükləri heyrətə saldı.
Yetdi insanların dərdli halına,
Qardaş qırğının qarşısın aldı.

Şaxta generalın saxta dövləti
Xain əməlləri sovruldu yelə.
Heydər Əliyevin qətiyyətilə,
Dövlət bütövlüyü qorundu belə.

Dəyişdi görkəmi şəhər, kəndlərin,
Yayıldı ellərə şöhrəti, şanı.
Elə ovsunladı incik qəlbləri,
Qoymadı bölünsün Azərbaycanı.

Onun büllur kimi əməllərindən,
Çeşmələr çağladı, çaylar duruldu.
Xalqın vətən sevər iğıdlərindən,
Yenilməz, mükəmməl ordu quruldu.

Mərkəzdə,ən uzaq dağ kəndlərində,
Məktəblər tikdirmək istək-səyidi.
Bir inam var idi, geniş qəlbində,
Təhsil millətinin gələcəyidi.

İdman yarışları, olimpiada,
Bizi qovuşdurdu xoş çağımızla.
Dünyanı titrədən çox yarışlarda
Ucaldı himnimiz, bayrağımızla.

Bütün  arzu, istək çin olubdu, çin,
Bir qüdrət var idi imza-qolunda.
Olsa da bir qədər, əzablı, gərgin,
Bir həyat başladı “İpək yolu”nda.

Zəhmeti bar verdi Ulu öndərin,
Dünya heyran qaldi "Bakı-Ceyhan”a
Xəzərdən uzanan qaz kəmərləri
Hərarət bəxş etdi bütöv cahana.

İllərlə həllini tapmayan işlər,
Heydər zəkasıyla tapdı həllini.
Onunla baş tutan rəsmi görüşlər,
Dünyada tanıtdı doğma elini.

Müstəqil dövlətin mərd prezidenti,
Ali kürsülərdən yaydı səsini.
Lissabon sammiti tam, kəskin,qəti;
Bəşərə çatdırdı haqq kəlməsini.



**Arzu edirəm ki, Sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür. Hər bir azərbaycanlı üçün bu iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətizmizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heş vaxt biz Laçınsız yaşaya bilmərik.Ağdam kimi gözəl bir şəhəri, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o isti suyu... Biz onlarsız yaşaya bilmərik.**

**Heydər Əliyev,**
**Ümummilli lider**

Prezident seçildi xalqın ümidi,
Min bir ehtiramla, coşqun həvəslə.
Elə zaman idi, elə çağ idi,
Dava səngimişdi atəşkəs ilə.

Atəşkəs dövründə Ulu Öndərin,
Ordu qurmaq oldu, müqəddəs anı.
Müstəqil, müdrik siyasətiylə,
Yenidən qururdu Azərbaycanı.

Qəlbində nisgilli dərd çağlayırdı,
Vətənin talanan sərvət-varına.
Ömrünün müqəddəs işi sayırdı,
Qaytarsın xalqını torpaqlarına

Bir vaxt cənnət olan Qarabağ eli,
Bu gün kədər, qüssə dərd məkanıydı.
Hələ sərt əsirdi ayrılıq yeli,
Hələ tapdaqlarda olan anıydı.

Düşmən caynağında qalan el-oba,
Zəhər dada-dada məhvə gedirdi.
-Bütün torpaqları qaytaracayıq,
Ulu öndər xalqa bəyan edirdi.

Böyük Tanrı ad veribdi bu yurda,
Ad qarışıq od veribdi bu yurda,
Min bir sərvət, dad veribdi bu yurda,
Tək qonşusu çox namərddi, mərd deyil.

Ermənin öz tarixi, yaşı yox,
Dədə-baba torpağı yox, daşı yox,
Hiyləgəri, qeyrətsizi, çaşı çox,
Abır-həya onlar üçün şərt deyil-

Bu yerlərə ermənilər gələli-,
Parçalandı bu torpağın zər-ləli,
İrəvanlı, Zəngəzurlu, Göyçəli,
Gör neçə el əldən getdi, bəs deyil?

Gücü yoxdur, arxasına güvənir,
Söz deyəmmir, “darğa”sına güvənir,
ATƏT adlı “qarğa”sına güvənir,
BMT-ni qərarları sərt deyil.

Həmsədrlər bölgələrə iz tutur,
Tərəflərə barış üçün üz tutur,
Günahkarı günahsızdan düz tutur,
Dedikləri bizə məqbul vəd deyil.

Xəyanətdən doymayırlar bu “yan”lar,
Ara vurur, bu “yan”lara uyanlar,
Dinə bilmir həqiqəti duyanlar,
Təklif vermək barış üçün hədd deyil.

Sahib çıxır Qarabağtək elimə,
Əl uzadır “Xarı bülbül” gülümə,
Biz hazırıq Vətən üçün ölümə-,
Bu oyundu-ancaq şahmat, nərd deyil.

Günəş doğub, hər yan nura boyanıb,
Daha düşmən boş xəyaldan oyanıb-,
Qarşısında məğrur ordu dayanıb-,
Dünya bilir, istəyimiz hərb deyil.

Deyirdi: - Mərd Şuşa, qürur şəhəri,
Xain əməllərdən gəldi bədd tuşa.
Zülmətə dönsə də, nurlu səhəri,
Yadlarda əbədi qalanmaz Şuşa!

Qoynu talan olmuş, viran qoyulmuş,
Şöhrətli, sərvətli, çörəkli Ağdam.
Qoynunda məzarlar çökmüş, oyulmuş,
Belə vəhşiliyə dözərmi adam?!

Kəlbəcər, Qubadlı dağ vüqarlıdı,
Kimsə bu vüqarı sındıra bilməz.
Cəbrayıl, Zəngilan min büsatlıdı,
Bu büsat “yan”lara bəxşiş edilməz.

Qurulur nizamla milli ordumuz,
Nə Laçın, Füzuli əyilməyəcək.
Bu yurdsuz, yuvasız ac qonşulara
Bir qarış torpaq da verilməyəcək.

Hər gün nizamlanır milli ordumuz,
Gücü göyüzündən-Tanrıdan gəlir.
Tapdaqda inləyən dilbər yurdumuz,
Müzəffər Ordunun yolun gözləyir.

***



Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim! Bu böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!

Gözün aydın olsun, Azərbaycan!
Gözün aydın olsun, dünya azərbaycanlıları!

Füzuli bizimdir!
Cəbrayıl bizimdir!
Zəngilan bizimdir!
Qubadlı bizimdir!
Ağdam bizimdir!
Laçın bizimdir!
Kəlbəcər bizimdir!
Şuşa bizimdir!
Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır,
Eşq olsun Azərbaycana!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının prezidenti,**
**Müzəffər Ali Baş komandan.**

Ata vəsiyyətin oğul Prezident,
Doğrultdu müqəddəs əməllərində.
Yenilməz bir ordu qurub-yaratdı,
Dünyanın qarışıq, sərt illərində.

44 günlük vətən vuruşlarında,
Yüksəldi ordunun şöhrəti-şanı.
Döyüşlərdə dönüb "Dəmir yumruğ"a,
Tanıtdı dünyaya Azərbaycanı.

Hər gün şad xəbərlər gəldi cəbhədən,
Hər kəsin gülürdü qürurdan üzü
Qəlbləri  coşduran xoş müjdələri,
Ali Baş komandan yayırdı özü.

Axır ki, səsləndi "Zəfər nəğməsi",
Səsləndi Şuşanın xilas günündə.
Ali Baş komandan qürurla durdu,
Fəxri xiyabanda-Ata önündə

Baş əydi, dik baxdı, salamlaşdı da,
O, ulu öndərin abidəsinə.
Zəfər sevincini çatdırdı ona,
Qələbə ovqatlı məğrur səsiylə:

Salam, gözün aydın, ruhun şad, ata,
Sənin vəsiətin yerinə yetdi.
Döndü oğulların dəmir yumruğa,
Qarabağ torpağı azad edildi.

...Beləcə gur səslə, vüqarlı səslə,
Bütün uğurları açıb, söylədi.
Azad torpaqların adların bir-bir,
Bir daha dünyaya bəyan eylədi.

...Füzuli bizimdir,
Cəbrayıl bizimdir,
Zəngilan bizimdir,
Qubadlı bizimdir,
Ağdam bizimdir,
Laçın bizimdir,
Kəlbəcər bizimdir,
Şuşa bizimdir,
Qarabağ Azərbaycandır!
Eşq olsun Azərbaycana!




## SON SÖZ

Bu gün son mənzilin Fəxri Xiyaban,
Qərq olub əbədi çiçək ətrinə
O Günəş ömrünü dünyaya yayan,
Dönübdür şeirimin qızıl sətrinə.

Bir insan ömründən söz açıram mən,
O mavi göylərdən enməyəcəkdir.
Əbədi bir ömür alıb Günəşdən,
O, Heydər ömrüdü, sönməyəcəkdir!

**Şərur-Naxçıvan-Bakı**

## Mündəricat

**Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı........................................................ 3**

**Adil Əliyev:**

**Heydər Əliyev – böyük millət və dövlət xadimi................... 7**

**Salidə Şərifova:**
**İbrahim Yusifoğlunun "O, Günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin bədii obrazı haqqında......... 20**

**İbrahim Yusifoğlu:**
**O, Günəş ömrüdü, sönməyəcəkdir (poema) ....................... 32**

**İbrahim Yusifoğlu**
**(Yusifov İbrahim Yusif oğlu)**

**Bakı, “Şirvannəşr”, 2023, 68 səh.**

**Naşir: Qəşəm İsabəyli**

**Yığılmağa verilmişdir: 25.01.2023**
**Çapa imzalanmışdır: 01.03.2023**
**Fiziki çap vərəqi 4.**
**Tiraj: 300.**